بسم الله الرحمن الرحيم

14 məsumun (ə) həyatı

# İmam Hüseyn (ə)




**Kitabın adı: İmam Hüseyn (ə)**
**Tərcümə edən: Seyyid Zahir Cavadov**
**Çap tarixi: 2018**
**Çap növbəsi: Birinci**
**Tiraj: 1000**

**Издательство «Свет»**
**Типография «Махаон», 2018**

**ISBN 5-18-050518-3**



Adı: Hüseyn (ə)
Məşhur ləqəbi: Seyyidüş-şühəda
Künyəsi: Əba Əbdillah
Atası: Əli (ə)
Anası: Fatimə (ə)
Doğum tarixi: 4-cü hicri-qəməri ili, 3 şəban
Doğulduğu yer: Mədinə
Şəhadət tarixi: 61-ci hicri-qəməri ili, 10 məhərrəm
Ömrü: 57 il
Dəfn yeri: Kərbəla



## **İmam Hüseynin (ə) təvəllüdü**

Şəban ayının üçü səhər çağı idi. Mütəal Allah tərəfindən sevimli bir övlad verəcəyini bilən Peyğəmbər (s) və Əhli-beyti (ə) səbirsizliklə onun intizarını çəkir, Allahla raz-niyaz edirdilər. Müəzzinin azan səsi Mədinənin küçələrinə yayılması ilə namazın mənəvi ətri də bütün evləri bürüdü və müsəlmanlar bir daha Allahla münacata başladılar.

Çox keçmədi ki, imam Əlinin (ə) ikinci övladının dünyaya gəlməsi xəbəri Allahın bütün yaxşı bəndələrinin sevincini aşıb-daşdırdı.

Peyğəmbər (s) sevinc içərisində qızının evinə gəldi və övladının təvəllüdü münasibətilə onu təbrik etdi. Məlum idi ki, o həzrətin özü körpəni görməyə tələsirdi. Odur ki, onu ağ parçaya bükübüb, Peyğəmbərin (s) yanına gətirdilər. Həzrətin hədsiz sevinci simasında aydın müşahidə olunurdu. O, körpəni qucağına alıb, onun sağ qulağına azan, sol qulağına iqamə oxudu. Sonra isə belə buyurdu: “Allah bu körpəyə Hüseyn adını seçib!” Beləliklə, körpənin adını Hüseyn qoydular.



## Peyğəmbərin ətirli qönçəsi

Mötəbər nəqllərə əsasən, həzrət Fatimə (ə) ilə imam Əlinin (ə) hər iki oğul övladı birbaşa Peyğəmbərin (s) nəzarəti altında təlim-tərbiyə almışdır. Peyğəmbərin (s) imam Hüseynə (ə) olan hədsiz məhəbbətindən, demək olar, bütün səhabələr xəbərdar idi. Onlar bunu dəfələrlə öz gözləri ilə müşahidə etmiş və həzrət Peyğəmbərin (s) onun (ə) barəsində söylədiklərini öz qulaqları ilə eşitmişdilər. Məsələn, günlərin birində Peyğəmbər (s) namaz üstə səcdəsini o qədər uzatdı ki, hamı o həzrətə (s) yeni hökm nazil olduğunu güman etdi. Namazdan sonra Peyğəmbər (s) belə buyurdu: "Xeyr, heç də yeni bir hökm nazil olmayıb. Sadəcə olaraq övladım Hüseyn kürəyimə qalxmışdı. Özü yerə enməyincə istəmədim səcdədən qalxım..."



Bu o həzrətin (s) imam Hüseynə (ə) göstərdiyi yüzlərlə nəvaziş və qayğıkeşliyindən bir nümunə idi. Çox vaxt Peyğəmbər (s) hər iki övladı Həsən (ə) və Hüseyni (ə) öz çiyinlərinə alar, onlarla əylənər, hətta Hüseynin (ə) dodaqlarından öpüb, buyurardı: "Hüseyn məndən, mən də Hüseyndənəm. İlahi, onu sevəni sən də sev!", yaxud deyərdi: "Həsənlə Hüseyn mənim dünyada iki ətirli qönçələrimdir!"

Bir çoxları yaxşı başa düşürdü ki, o həzrətin (s) Hüseynə (ə) məhəbbəti adi övlad məhəbbətindən çox-çox yuxarıdır və onların arasında İlahi rabitə vardır. Doğrusu, Peyğəmbərin (s) Fatimədən (ə) başqa bir neçə qız övladı olduğuna baxmayaraq Həsənlə (ə) Hüseynə (ə) hədsiz məhəbbəti bu məsələyə tam aydınlıq gətirirdi. O həzrət (s) özü də həmişə buyurardı: "Bu iki övladım behişt cavanlarının sərvəridir. Onları sevən məni sevmiş, onlara düşmən olan isə mənə düşmən olmuşdur!"

Peyğəmbərin (s) məsihiləri "mübahilə" adlı bir-birinə qarğışa dəvəti hadisəsində onları (Həsən və Hüseyn) da özü ilə mübarizə meydanına aparması, "Kisa" hadisəsində hər ikisini öz əbasının altına alaraq Əhli-beytin (ə) üzvlərindən adlandırması və s. Hüseynin (ə) Allah dərgahında böyük məqamından xəbər verir.



**İmam Hüseynin (ə) tərbiyəsi ilə Peyğəmbər (s) özü məşğul olur**

Həm imam Həsən (ə), həm də imam Hüseyn (ə) dünyaya gəldiyi gündən onların tərbiyəsi birbaşa Allahın elçisinin nəzarəti altında olmuş və bu bir qayda olaraq o həzrətin (s) dünyadan köçdüyü günədək davam etmişdir.

Peyğəmbər (s) imam Həsənlə (ə) imam Hüseyni (ə) o qədər sevirdi ki, onların azacıq narahatlığına belə dözmür, hər biri ilə əylənir və həmişə onları sevindirməyə çalışırdı.



Bir gün Peyğəmbər (s) yol ilə gedirdi. Yoldan bir az aralı imam Hüseyn (ə) uşaqlarla oynayırdı. Peyğəmbər (s) Hüseyni (ə) görən kimi onu ağuşuna almaq üçün sevimli nəvəsinə tərəf getdi. Hüseyn (ə) Peyğəmbərin (s) ona doğru gəldiyini görəndə başqa tərəfə qaçdı. Peyğəmbər (s) yenə onun ardınca getdi və onunla oynamağa başladı. Həzrət balaca nəvəsinin ardınca qaçırdı. Nəhayət, Hüseyni (ə) tutub, bağrına basdı. Sonra buyurdu: “Hüseyn məndəndir və mən də Hüseyndənəm. Hər kəs məni sevsə, Allahı sevmiş və hər kəs Allahı sevsə, cənnət onun üçündür!”



“Hüseyni sevəni mən də sevirəm.”

Bir gün Peyğəmbər (s) Həsənlə (ə) Hüseyni (ə) çiyninə almışdı və səhabələrə tərəf gedirdi. Onlara çatanda buyurdu: “Bu iki övladımı sevən məni sevmiş, onlara düşmən olan isə mənə düşmən çıxmışdır!”

Salman Farsi deyir: Bir gün gördüm ki, Peyğəmbər (s) Hüseyni öz dizləri üstə oturdub, üzündən öpərək belə deyir: “Sən seyid oğlu seyid, seyidlər atasısan! Sən imam, imam oğlu və imamlar atasısan! Sən höccət oğlu oğlu, doqquzuncu – sonuncu Qaim höccətin atasısan!”

**Peyğəmbərin (s) sifarişi**

Peyğəmbər (s) bilirdi ki, ümməti ondan sonra imam Hüseynə (ə) olmazın cəfalar edəcək. Odur ki, yaranan hər fürsətdən istifadə edir, bu barədə xalqa tapşırıq və tövsiyyələr verirdi. Hamı o həzrətin Hüseynə (ə) xas sevgisini əyani müşahidə edirdi. Allahın elçisi Hüseynə (ə) sevgikdən əlavə, onu sevənləri də sevir və belə buyururdu:



## İmam Hüseynin (ə) zalımlar və müşriklərlə mübarizəsi

Hüseyn ibn Əli (ə) ömrünün altı ilini babası Peyğəmbərin (s) yanında keçirmiş, zülm və haqsızlıqla mübarizəni birbaşa o həzrətin özündən öyrənmişdir. Allahın elçisi vəfat etdikdən sonra otuz il atası Əli (ə) ilə birgə yaşamış, Peyğəmbərdən (s) sonra baş verən mühüm hadisələrdə yaxından iştirak etmişdir.



Peyğəmbər (s) vəfat etdikdən sonra Əli (ə) üçün ağır günlər başlamışdı. Belə bir günlərdə Həsən (ə) və Hüseyn (ə) İslamın məqsədləri uğrunda fədakar bir əsgər kimi atasının xidmətində dayanır, zalımlarla və müşriklərlə vuruşurdular. Onlar Cəməl, Süffeyn və Nəhrəvan müharibələrində fəal iştirak edir, şücaətlə döyüşürdülər.

İmam Hüseyn (ə) zülm əleyhinə mübarizəni son damla qanına kimi davam etdirmiş, Aşura günü özünün sayca az tərəfdarı ilə zülm və şirk qarşısında şücaətlə dayanmış və bu yolda ən yaxın əzizləri ilə birgə şəhid olmuşdur.

## İmam Hüseynin (ə) fəsadla mübarizəsi

İmam Həsən (ə) Müaviyənin əli ilə şəhid edildikdən sonra Peyğəmbərin (s), imam Əlinin (ə) və imam Həsənin (ə) vəsiyyətinə əsasən, imamlıq məqamı imam Hüseynə (ə) keçdi və bütün müsəlmanlara rəhbərlik vəzifəsi Allah tərəfindən o həzrətin öhdəsinə qoyuldu.



İmam Hüseyn (ə) də qardaşı Həsən (ə) kimi İslamı qorumaq üçün azğın və hiyləgər Müaviyə ilə bağlanan sülh müqaviləsinə sadiq qaldı və hakimiyyəti qəsb edən bu ünsürə qarşı qiyama tələsmədi. Amma müqavilənin şərtlərinə pozaraq oğlu Yezidi özünə canişin təyin etdikdə, artıq Hüseyn (ə) sükutu rəva bilmədi və onu ifşa edərək açıq qiyama qalxdı. Beləlilklə, Yezid hakimiyyətə gələn ilk gündən imamdan hökmən beyət alınmağını göstəriş verdi. İmam (ə) onun hakimiyyətini tanımadı və onunla beyət etmədi. Nəhayət, Allahın əmri ilə zülm və fəsadla mübarizə üçün Mədinəni tərk edərək Məkkəyə tərəf üz tutdu.



## Kufəlilərin imam Hüseyni (ə) dəvət etməsi

İmam Hüseynin (ə) Yezidə beyətdən imtina xəbəri sürətlə Məkkə və Mədinə əhalisi arasında yayıldı və bu xəbər Kufəyə də çatdı. Müaviyənin zülm üzərində qurulan hakimiyyətindən təngə gələn kufəlilər Məkkəyə – imam Hüseynə (ə) məktub yazaraq onu Kufəyə dəvət edib onlara rəhbərliyi öhdəsinə almağı təklif etdilər.



Kufəlilərin dəvətinə cavab verməyi özünə vəzifə bilən imam (ə) əmisi oğlu Müslim ibn Əqili Kufəyə göndərdi ki, onlarla yaxından söhbət edib, dəvət barədə qəti fikirlərini öyrənərək imama xəbər versin.

Odur ki, Müslim imam Hüseynin (ə) səfiri kimi Kufəyə getdi və camaat onu çox yaxşı qarşıladı. Bu minvalla minlərlə insan onunla beyət etdi. Nəhayət, Müslim də imama (ə) məktub yazaraq kufəlilərin o həzrəti gözlədiklərini xəbər verdi. İmam Hüseyn (ə) kufəliləri yaxşı tanıyırdı, onların atasına və qardaşına qarşı vəfasızlıqlarından agah idi. Lakin arada heç bir şübhə qalmamaq və Allahın göstərişini yerinə yetirmək üçün ailə-uşağı və tərəfdarları ilə birlikdə Kufəyə getməyi qərara aldı.

## İmam Hüseynin (ə) Kufəyə tərəf hərəkəti

Zilhiccə ayının səkkizinci günü hacıların Minaya getmək üçün Məkkədə toplaşdıqları zaman imam Hüseyn (ə) bir gün də qalıb, doqquzuncu gün öz ailəsi və tərəfdarları ilə birlikdə Kufəyə doğru yola düşdü. Həzrət bu rəftarı ilə hamıya anlatdı ki, Peyğəmbər (s) övladı qətiyyən Yezidin hakimiyyətini tanımır və onunla beyət qəsdi yoxdur. Hələ üstəlik, qiyama qalzmış və kufəlilərə də müsbət cavab vermişdir.





Müslimin Kufəyə gəlməsindən və kufəlilərin onunla beyət etməsindən xəbər tutan Yezid dinsiz və rəhimsiz ibn Ziyadı Kufəyə göndərdi və ona tapşırdı ki, Müslimi həbs etsin, onunla beyət etmiş camaatı qorxudaraq ətrafından dağıtsın.

İbn Ziyad Kufəyə getdi və camaatı təhdid edərək imanı zəif kufəliləri Müslimin ətrafından dağıtdı. Bundan sonra Müslim Kufədə tək qaldı.

Müslim çıxılmaz vəziyyətdə qalsa da narahatlığı tək qaldığına görə deyildi. O, kufəlilərin dəvətini qəbul edərək ailəsi, yaxın qohum-əqrəbası və dostları ilə bu səmtə gələn imam Hüseynə (ə) görə çox narahat idi.

Hər halda o, tək qalsa da təslim olmadı və tək-tənha ibn Ziyadın əsgərləri ilə şücaətlə döyüşdü və nəhayət, böyük qəhrəmanlıq göstərərək şəhid oldu.

## Kərbəlada imam Hüseynin (ə) mühasirəyə alınması



Mədinəni tərk edəndə geriyə yol olmadığını və hökmən şəhid olacağını bilən Əba Əbdillah Hüseyn (ə) bu məsələni dəfələrlə öz tərəfdarlarına xatırladaraq buyururdu:
“Bu qiyamda mənim məqsədim İslama zidd olan Yezidin hakimiyyətini ifşa, insanları yaxşılığa dəvət və pislikdən çəkindirmək, zülmün qarşısında dayanmaqdır. Bəs, məmin İslamın və Quranın ayinlərini dirçəltməkdən başqa bir məqsədim yoxdur və bu yoldan geri dönməyim qeyri-mümkündür.”
İmam (ə) bu fikirləri ilə hamıya öz məqsədini açıq elan edir, heç kimi bir yolla özünə qoşulmağa vadar etmirdi.
İbn Ziyad imam Hüseynə (ə) məktub yazaraq təhdid etdi ki, ya təslim olaraq Yezidə beyət etməlisən, ya da səni öldürəcəyəm.
Allah yolunda şəhid olmağı səadət, zillətlə yaşamağı isə rüsvaylıq və xarlıq hesab edən Hüseyn (ə) onun məktubuna belə cavab verdi: “Bu məktubun mənim yanımda heç bir cavabı yoxdur.”
Həzrətin etinasızlığı və onun təhdidlərindən qorxmaması ibn Ziyadı bərk hiddətləndirirdi. Odur ki, hələ imam yaxınlaşmamış onun (ə) və səhabələrinin Kərbəlada mühasirəyə alınması əmrini verdi. Çox çəkmədi ki, məhərrəm ayının ikisində ibn Ziyadın böyük qoşunu Hüseynin (ə) karvanını mühasirəyə aldı. Hər gün qoşunun sayı artır, mühasirə daralırdı. Bu minvalla məhərrəm ayının yeddinci günü karvan əhlinə hətta su yolunu da bağladılar. Bundan sonra Hüseyn (ə) ailə-uşaqları və tərəfdarları ilə birgə daha ağır vəziyyətlə qarşılaşdılar.



## Yaxşılığa dəvət və pislikdən çəkindirmə

İnsana özündən də mehriban olan imam Hüseyn (ə) heç vaxt onların düz yola hidayətindən əl götürmək qəsdində deyildi. Beləliklə, düşmən qoşununa xitab edərək buyurdu: “Ey camaat! Mən bura sizin dəvətinizlə gəlmişəm. Özünüz mənə məktub yazaraq təkidlə gəlməyimi istədiniz, budur, gəlmişəm.”



Cavab tapmayan düşmən istər-istəməz sükuta batdı. Bu vaxt imam onlara belə buyurdu: “Əgər öz sözünüzdən peşmansınızsa, mən qayıdıb gedə bilərəm.”

Qoşun sərkərdəsi olan Hürr dedi: “Mən sənə qayıtmağa icazə verə bilmərəm. Sən bizimlə Kufəyə ibn Ziyadın yanına getməlisən.”

İmam Hüseyn (ə) Hürrün sözlərindən narahat olaraq buyurdu: “Anan sənin matəmində otursun. Bizdən nə istəyirsən?” Hürr dedi: Səndən başqa hər kim bu sözü mənə desəydi, cavabını verərdim. Ancaq nə edim ki, sən Fatimənin (ə) oğlusan.

Hər halda ürəyində Əhli-beyt (ə) sevgisi olan Hürr sonda o həzrətin haqlı olduğunu başa düşüb, tövbə edərək imama tərəf keçdi.

Məhərrəm ayının yeddisi Ömər ibn Səd dörd min nəfərlik qoşunla Kərbəlaya çatdı və ibn Ziyadın göstərişi ilə su yolunu ida imam Hüseynin (ə) və səhabələrinin üzünə bağladı. Bu vaxt imamın səhabələrindən biri həzrətdən icazə alıb, ibn Sədə nəsihət üçün getsə də, sözləri ona təsir etmədi. Hətta həzrətin son nəsihətinin də faydası olmadıqda, buyurdu: “Yeyib, ətə-cana gəldiyiniz haram tikələrdir ki, indi sizi haqqı dərk etməyə qoymur!” İmam bu sözləri ilə haram tikənin insana necə təsir etdiyini, onu haqqı başa düşməyə və qəbul etməyə, hətta Allahın ən yaxşı bəndəsinin nəsihətini belə dərk etməyə qoymadığını hamıya anlatdı.



## İmam Hüseyn (ə) və səhabələrinin şəhadəti

İmam Hüseyn (ə) dediyi nəsihətlərin kütləyə təsir etmədiyini gördükdə, onlardan səhərə kimi möhlət aldı ki, o gecə Allahla raz-niyaz etsin. İmam və səhabələri gecədən səhərədək Allahla aşiqanə münacat edərək namaz qıldılar, Quran oxudular, dua etdilər.

Aşura günü çatdı. İmam Hüseyn (ə) və silahdaşları cihada hazır oldular. Üç gün idi ki, düşmən su yolunu onlara bağlamışdı. Susuzluq hamıya, xüsusilə uşaqlara daha çox əziyyət verirdi.

Hüseynin (ə) bütün səhabələri bir-bir meydana gedərək şəhid oldular.



İmam meydanda tək qalmışdı. Bir tərəfdən xeymələri qorumalı, digər tərəfdən də düşmənlə tək döyüşməli idi. Hələ qadın və uşaqların susuzluğu da həzrəti narahat edirdi. İmam xeyməyə qayıtdı, susuzluqdan haldan düşmüş altı aylıq övladı Əli Əsğəri qucağına alıb döyüş meydanına getdi. Bu zaman Həzrət südəmər körpəsini əlinin üstündə tutub, dedi: “Ey camaat, heç olmasa, bu uşağa yazığınız gəlsin və ona sudan məhrum etməyin!”

Elə o vaxt düşmən qoşunundan Hərmələ adlı biri oxla Əli Əsğərin boğazından vurub, onu şəhid etdi.

Sonuncu əsgərini də Allah yolunda qurban verən Hüseyn (ə) meydanda tək qaldı.

Nəhayət, Əba Əbdillah Hüseyn (ə) qəhrəmanlıqla döyüşərək özü də şəhid oldu.

Salam olsun Hüseynə!
Hüseynin oğlu Əliyə!
Hüseynin övladlarına!
Hüseynin səhabələrinə!



## O həzrətin kəlamlarından:

“Mən ölümü eynilə xoşbəxtlik, zalımlarla yaşamağı isə ağrılı əzab sanıram.”

“Xalqın ən səxavətlisi o kəsdir ki, heç bir hədiyyə ummadığı şəxslərə (bir şey) əta etsin.”

“Üzr istəməli olacağın işdən uzaq ol. Çünki mömin nə pis iş görər, nə də üzr istəyər.”



# İmam Hüseyn (ə)

